*XI Bakı Beynəlxalq Kitab Sərgisi*

# Paytaxtımızda kitab təntənəsi

**XI Bakı Beynəlxalq Kitab Sərgisinin ikinci günündə "Heydər Əliyevin vətən səfərləri" çoxcildliyinin təqdimatı keçirilib. Ulu öndərin liderlik fəaliyyətinin önəmli bir yönünə geniş işıq salan ensiklopedik nəşr ikicildlik lüğət və Ümummilli lider Heydər Əliyevin ölkənin regionlarına səfərlərini əks etdirən kitablardan ibarətdir.**

Təqdimat mərasimində çoxcildliyin müəllifi Vəsimə İsmayılqızı yaradıcılıq prosesi barədə məlumat verib. Kitabın redaktoru İsmayıl Umudlu, "Azərnəşr" nəşriyyatının direktoru Əlövsət Ağalarov, Azərbaycan Yazıçılar Birliyinin Ədəbi Əlaqələr Mərkəzinin direktoru Əsəd Cahangir təqdim edilən çoxcildliyin Ümummilli lider Heydər Əliyevin xalqa xidmətə həsr olunmuş mənalı həyatını və zəngin irsini öyrənənlərə layiqli töhfə olduğunu söyləyiblər.

Bildirilib ki, "Heydər Əliyevin Vətən səfərləri" toplusunun I cildi onun rəhbərliyinin ilk dövrünü əhatə edir və 2023-cü ildə – "Heydər Əliyev İli"ndə işıq üzü görüb. II cild sonrakı illərə həsr edilib. Bu silsilədə Heydər Əliyevin bölgələrə səfərlərindən bəhs edən "Goranboyda izim qalıb", "Beyləqandadır izim", "Şuşada izim qalıb" kitabları da yer alıb.



"Qərbi Azərbaycan irsi" kitabının I cildinin təqdimatı keçirilib.